**MEMARLIQ**

**АРХИТЕКТУРА** **ARCHITECTURE**

*http://doi.org/1058225/sw.2023.2-5-9*

## HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN MEMARLIQ İRSİNİN QORUNMASINDA ROLU

**Abdullayeva Nigar Azər qızı**– doktorant, Memarlıq konstruksiyaları və abidələrin bərpası kafedrası, AzMİU, aliyeva_88@hotmail.com

**Annotasiya.** Ümummilli lider H. Əliyevin hakimiyyətdə olduğu dövrlərdə, məhz birbaşa səyləri nəticəsində tarixən təşəkkül tapmış Azərbaycan şəhərlərinin bərpası və qorunması istiqamətində zəruri tədbirlər görülmüşdür. Onun müxtəlif illərdə verdiyi müvafiq fərmanları ilə Bakıda İçərişəhər, Şuşa, Şəki, Ordubad şəhərləri, Bakının Nardaran kəndi,Gəncədə Nizami Gəncəvinin Məqbərə Kompleksi, İsmayıllı rayonunun Lahıc qəsəbəsi, Qax rayonunun İlisu və Şəki rayonunun Kiş kəndləri, Ordubad rayonundakı Qaraçay çayının vadisi, Çıraqqala və qədim Şabran qoruq elan edilmişdir. Azərbaycanın qədim şəhərsalma ənənələrini özündə əks edən 2000-ci ildə İçərişəhərin Şirvanşahlar Saray Kompleksi və Qız qalası ilə birgə YUNESKO-nun maddi irs siyahısına daxil edilməsi də böyük tarixi hadisə idi.
**Açar sözlər:** memarlıq abidələri, mədəni irs, rekonstruksiya, milli özünəməxsusluq, memarlıq obrazı

## HAYDER ALIYEV'S ROLE IN PROTECTING AZERBAIJAN ARCHITECTURAL HERITAGE

**Abdullayeva Nigar Azer**- PhD student, department of Architectural Constructions and Restoration of Monuments, AzUAC, aliyeva_88@hotmail.com

**Summary.** During the reign of the national leader H. Aliyev, the necessary measures were taken towards the restoration and protection of Azerbaijani cities, which had historically developed as a result of his direct efforts. According to the relevant decrees issued by him in different years, the cities of Icherisheher, Shusha, Sheki, Ordubad in Baku, the village of Nardaran in Baku, the Nizami Ganjavi Mausoleum Complex in Ganja, the Ordubad region, Chiraggala and ancient Shabran are declared reserves. In 2000, taking into account the ancient urban planning traditions of Azerbaijan, the Old City was included in the UNESCO list of tangible heritage along with the Palace Complex of the Shirvanshahs and the Maiden Tower.
**Keywords:** architectural monuments, cultural heritage, reconstruction, national identity, architectural image

**Giriş.** *“Xalq bir çox xüsusiyyətləri ilə tanılır,sayılır və dünya xalqları içərisində fərqlənir.Bu xüsusiyyətlərdən ən yüksəyi,ən böyüyü mədəniyyətdir”* [1]. Bu qiymətli sözlər Azərbaycan xalqının dahi oğlu, dünya səviyyəli siyasətçi, Ulu Öndərimiz Heydər Əliyevə məxsusdur. Azərbaycan xalqının mədəniyyəti, tarixi və mədəni irsi haqqinda çox fikirlər söylənilib və bundan sonra da söyləniləcək, lakin Heydər Əliyevin dediyi kəlamlar insanda öz qədim mədəniyyətinə hörmət və hədsiz qürur hissi aşılayır. Xalqının mədəni və memarlıq irsinin mühafizəsi bu dahi şəxsiyyətin daima diqqətində olmuşdur.

Ümummilli lider H.Əliyevin hakimiyyətdə olduğu dövrlərdə, məhz birbaşa səyləri nəticəsində tarixən təşəkkül tapmış Azərbaycan şəhərlərinin bərpası və qorunması istiqamətində zəruri tədbirlər görülmüşdür. Onun müxtəlif illərdə verdiyi müvafiq fərmanları ilə Bakıda İçərişəhər, Şuşa, Şəki, Ordubad şəhərləri, Bakının Nardaran kəndi,Gəncədə Nizami Gəncəvinin Məqbərə Kompleksi,

İsmayıllı rayonunun Lahıc qəsəbəsi, Qax rayonunun İlisu və Şəki rayonunun Kiş kəndləri, Ordubad rayonundakı Qaraçay çayının vadisi, Çıraqqala və qədim Şabran qoruq elan edilmişdir. Azərbaycanın zəngin tarixini özündə əks etdirən qədim şəhərlərdən biri də Bakı qalası -İçərişəhərdir. İçərişəhərin Qərb qapısından daxil olan kimi Şirvanşahlar Sarayı minarə və günbəzlərinin əzəməti ilə diqqətinizi çəkəcəkdir. Şirvan hökmdarlarının iqamətgahı olan Şirvanşahlar Sarayı, qədim şəhərdə dominant rol oynayır.

VI əsrdən XVI əsrə qədər mövcud olmuş Şirvanşahlar dövləti hökmdarlarının ağıllı və düzgün siyasəti nəticəsində min il yaşaya bilmiş, yalnız Şirvanın deyil, bütün Azərbaycanın mədəni, ictimai-iqtisadi, siyasi cəhətdən inkişafında əvəzsiz rol oynamışdır.1191- ci ilədək Şamaxı şəhərində yerləşən paytaxt güclü zəlzələ nəticəsində dağıldıqdan sonra Şirvan dövlətinin iqamətgahı Bakı şəhərinə köçürülmüş və Saray binasının inşasına başlanılmışdır. XIV- XV əsrlərdə isə sarayın ərazisi daha da genişləndiriləərək müxtəlif funksiyalı tikililər inşa edilmişdir. Kompleksin Yaşayış binası, Divanxana, Seyid Yəhya Bakuvinin türbəsi , Key Qubad məscidinin qalıqları, Sultan Murad darvazası, Ailə türbəsi, Şah məscidi və Saray hamamı dövrümüzə qədər gəlib çatmış və Qız Qalası ilə birgə 2000-ci ildə UNESCO-nun "Dünya Mədəni İrs Siyahısı" na daxil edilmişdir. [1]. Bunun özüdə böyük tarixi hadisə idi.



**Şəkil 1.** "Saray" hamamı [7]



**Şəkil 2**. "Şirvanşahlar" kompleksi [7]

**Metodlar.** Azərbaycanın müxtəlif şəhər və kəndlərinə səfəri zamanı Heydər Əliyev daim oradakı memarlıq və mədəniyyət abidələrinin vəziyyəti ilə maraqlanır, tarixi abidələrə xüsusi diqqət və məhəbbət ilə yanaşırdı. Bununla dahi liderimiz bu gün ki gənc nəsilə sanki bildirirdi ki, tarixin əsas daşıyıcıları arxivlərdə saxlanılan qədim yazılırla bərabər, yaşı min illiklərlə ölçülən memarlıq abidələrinimizdir. Belə abidələrdən biri də Gəncə şəhərində yerləşən Nizami Gəncəvinin Məqbərə Kompleksidir.





**Şəkil 3.** Nizami Gəncəvinin məzarı 1947 il (Handan kəndi,indiki Əhmədli kəndi-Gəncə ş.) [2]

Məlumdur ki, vəfatından sonra Nizami Gəncəvi ata-baba yurdunda dəfn edilmiş və məzarı üzərində türbə tikilmişdir. Mütəxəssislərin fikrincə ilk türbənin tikintisi XIII-XIV əsrlərə aid edilir.

Yeni məqbərə isə II Dünya müharibəsindən sonra 1948-ci ildə Vakutinin layihəsi əsasında ucadılmışdır [2].

**Müzakirə.** 1990-1991-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə məqbərə Nizami Gəncəvinin 850 illik yubileyi ərəfəsində yenidən qurulmuşdur. Azərbaycanın əməkdər memarı F. İmamverdiyevin layihəsi əsasında ucadılmış məqbərə Azərbaycanın XII əsr memarliq üslubunda tikilmiş monumental memarlıq əsəridir. 1995-ci ildə Nizami Gəncəvinin Məqbərə Kompleksinin yenidən bərpa olunması haqda Sərəncam məhz Ulu Öndərimiz tərəfindən imzalanmışdır. Məqbərə kompleksinin türbəsi şairin "Xəmsə" sinə daxil olan əsərlərdən bəhs edən heykəltəraşlıq kompozisiyası, süni göl, beş buta, beş çarhovuz daxildir. [3].



**Şəkil 4.** Nizami Gəncəvinin məqbərəsi [2]



**Şəkil 5.** Nizami Gəncəvinin heykəli– Roma [2]

Heydər Əliyev 24 may 2000-ci ildə dahi şair və mütəfəkkir Nizami Gəncəvinin məqbərəsini ziyarət edərək demişdi: "Nizaminin məqbərəsinin qorumaq bizim müqəddəs vəzifəmizdir...Onun yazdığı əsərlər dünyada məhşurdur. Təsəvvür edin, 850 il bundan öncə bu qədər böyük əsərlər yaratmaq ! Bu əsərlər təkcə şeirdən ibarət deyildir, onların hər birində böyük elm var, böyük fəlsəfə, dahi fikirlər var. Buna görədə onun əsərləridə yaşayır, özüdə yaşayır" [1].

Hal hazırda Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyev Ulu öndərin siyasətini, onun Azərbaycan memarlıq irsininin qorunmasına göstərdiyi qayğını davam etdirərək Nizami Gəncəvinin 870 illik yubileyi ərəfəsində Məqbərə Kompleksində genişmiqyaslı təmir-bərpa və abadlıq işlərinin aparılması haqqında sərəncam imzalamışdır. Bu da milli memarlıq ənənlərinin qorunması və yeni nəsillərə ötürülməsi üçün olduqca vacib əhəmiyyət kəsb edir. Bununla birgə XII əsrin görkəmli şairin və mütəfəkkirin abidəsi Azərbaycan Prezidentinin sərəncamı ilə İtaliyanın paytaxtı, Roma şəhərində Villa Borghese parkında, Viale Madame Leticia ərazisində ucadılıb. Abidənin müəllifləri Azərbaycan Respublikasının xalq rəssamı Salxab Məmmədov və heykəltəraş Əli İbadullayevdir. Layihə, Roma şəhərın Hökumətinin tarix və incəsənət üzrə komissiya tərəfindən təsdiqlənmişdi.

Daha bir görkəmli şairin məqbərəsindən bəhs etmək istədikdə yadimiza XVIII əsr Azərbaycan şairi, məşhur siyasi və ictimai xadim, Qarabağ xanı İbrahimxəlil xan Cavanşirin baş vəziri olmuş Molla Pənah Vaqifin muzey- məqbərə kompleksi düşür. Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin inşasına memar A.V.Salamzadə və E.İ Kanukovun layihəsi əsasında 1977-ci ildə başlanılmışdır.

Kompleksin açılışı 1982-ci ilin yanvarında baş tutmuşdur. Kompleks Şuşa şəhərinin məşhur yerində- Cıdır düzünə yaxın bir ərazidə böyük şairin məzarı üstündə inşa edilmişdir. Məqbərə dördkünc quruluşa malikdir və mərmərlə bəzədilib. Burada Vaqifin Şuşa həyatını əks etdirən dövrə aid olan səksənə yaxın eksponat da sərgilənirdi. [5]. Şairin türbəsinin inşası məsələsi həll edilərkən, ətrafdakı dağ mənzərəsi və şəhərsalma xüsusiyyəti nəzərə alınmış, Azərbaycanın milli memarlıq qurluşlarından olan qülləvari türbələrinin kompozisiya quruluşundan istifadə edilmişdir. Türbənin inşasında müəlliflərin xalq memarlığının yerli ənənələrinə, monumental-dekorativ və tətbiqi plastika vasitələrinə geniş müraciət etmələri diqqəti cəlb edir.

Vaqifin türbəsində bədii memarlıq fikrinin son dərəcə aydınlığı və kompozisiyanın məntiqi sadəliyi konstruksiya və bədii surətinin ahəngdarlığı əldə edilmişdir. Şairin abidəsi kompozisiyanın tamlığı və formaların plastik zənginliyi ilə də fərqlənir. O, planda kvadrat şəkilli, aşağısı bir qədər geniş, oturacaq şəklində olan xaricdən qırmızımtıl Qarabağ mərməri ilə üzlənmiş hündür bürcdür. Türbənin oturcağının üç tərəfindən başqa bütün fasadların hündürlüyü boyunca anodlaşdırılmış alüminium şəbəkə ilə örtülmüşdür [5].





**Şəkil 6.** Molla Pənah Vaqifin muzey-məqbərə kompleksi, Heydər Əliyev Şuşada 1982– ci il [5]

Türbənin şəhərə baxan tərəfi təsirli baştağ görkəmi ilə nəzərə çarpır. Baştağın atqısında ağ mərmərdən böyük hərflərlə şairin adı həkk edilmişdir. 18 metr hündürlükdə ağ mərmər salonun mərkəzində şairin qəbri üzərində qara mərmərdən sənduqə qoyulmuşdur. Türbənin daili memarlğına işıq və hava hopdurulması və heykəltəraş A. Mustafayevin işi olan qabartmanın əlavə edilməsi şairin abidəsini daha da zənginləşdirmişdir. Girişə yönəldilmiş qabartma heykəl interyerin miqyası ilə yaxşı uyğunlaşdırılmışdır. Şəbəkələrdən süzülən işıq şüaları insanda dinamik işıq və kölgə strukturlu daxili məkan haqqında nəhənglik, təmtəraq və romantik coşğunluq kimi xoş duyğular oyadır. Türbənin konstruksiya həlli monolit dəmir-beton karkasa əsaslanır. Bəzək vurmaq üçün yalnız yerli inşaat materiallarından istifadə edilmişdir. Müəlliflər Azərbaycanın bürclü türbələrinin kompozisiyalı tərtibatı ənənələrini davam etdirmişlər. Ənənədən fərqli olaraq qülləvari abidənin günbəzlə qurtarmaması, ümumi kompozisiyanın müasir bədii həllini tapmışdır. Günbəz əvəzinə yastı dəmir-beton örtük layihələşdirilmişdir. Örtüyün yanlarından çıxıntı əmələ gətirən yüksək söykənəcəklər, fasadların zərif alüminium şəbəkələri ilə şaquli kompozisiyada xüsusi yüngüllük, milli xüsusiyyət və uçuş təəssüratı yaradır [6].

Gözəl təbiət mənzərəsi ilə təsirli təzad təşkil edən, iri miqyaslı abidəvi kompozisiyasına görə yadda qalan, dəqiq və təsirli siluetə malik abidə ustalıqla gözəl dağ mənzərəsinə daxil edilmişdir. Yüksək peşəkar səviyyədə hazırlanmış Vaqif türbəsi qoruq şəhər olan Şuşanın memarlıq üslubuna yeni bir nəfəs gətirmiş gözəl abidədir. Kompleksin inşası dörd ilə yaxın davam etmiş və o dövrdə Qarabağda məsul vəzifələrdə erməni rəhbərliyinin maneələrinə baxmayaraq yanvar ayının 14-də açılış mərasimi keçirilmişdir və açılış mərasimində Ulu Öndər Heydər Əliev şəxsən iştirak etmişdir [4].

Qeyd etmək isdərdimki uzun müddət Ermənistan Silahlı Qüvvələri tərəfindən Şuşa şəhərinin işğal edilməsi nəticəsində kompleksin binası və burada sərgilənən onlarla eksponat məhv edilmiş, aparılması mümkün olanları isə daşınmışdır [5]. Vətən müharibəsindən sonra ilk dəfə Şuşaya 2021-ci ilin 14 yanvarında– Vaqifin məqbərəsinin açılışının keçirildiyi gündən düz 39 il sonra gəldiyini deyən Prezident İlham Əliyev bildirib ki, bunun da böyük rəmzi mənası var idi və ilk göstərişlərdən biri də o oldu ki, Vaqifin məqbərəsi bərpa edilsin: “Yanvar ayından bu günə qədər, 7 ay ərzində artıq çox böyük işlər görülüb və Şuşaya ikinci-üçüncü dəfə gələnlər bunu görür.




**Şəkil 8.** Heydər Əliyev və İlham Əliyev, İlham Əliyev Şuşada 39 ilin keçmişi və bu günü [5]

Dövlət başçısı çıxışını bu sözlərlə bitirib: Əziz dostlar, təxminən 40 il bundan əvvəl, bax, bu yerdə atam durmuşdu, mən isə o tərəfdə durmuşdum. Şaxtalı-qarlı havada Vaqifin məqbərəsinin açılışı idi. şəkil 8,9. Ondan sonra ikinci dəfə 1982-ci ilin iyul ayında– iyulun 29-da atamla bərabər ikinci dəfə Şuşaya gəlmişdim. O vaxt Vaqif Poeziya Günləri keçirilirdi. Bu gün isə ikinci dəfə Vaqifin məqbərəsinin açılışını biz qeyd edirik. Vaqif Poeziya Günləri keçirilərkən atamın 59 yaşı var idi. Bu gün mənim 59 yaşım var. Bəziləri hesab edə bilər ki, bu, təsadüfdür. Ancaq mən hesab edirəm ki, burada böyük rəmzi məna var, tarix təkrarlanır. Azərbaycan tarixinin qara səhifəsi artıq arxada qaldı və yenidən biz nəfəs almağa başlamışıq.

Dövlət başçısı qeyd edib ki, Vaqifin məqbərəsi işğal edilmiş torpaqlardakı bütün digər tarixi abidələrimiz kimi erməni vandalizminə məruz qalıb. Bu gün isə məqbərə tam bərpa edilib və ikinci açılışı olub. Biz gənc tədqiqatcı-memarlar olaraq dahi şəxsiyyət Heydər Əliyevin qədim memarlıq irsimizin mühafizəsi üçün fəaliyyətini örnək alıb, milli memarlıq ənənələrinin yaşamasını, elmi cəhətdən öyrənilməsini, araşdırılması və yeni memarlıq cərəyanlarına səlis inteqrasiyasını beləliklədə dünya miqyasında daha da tanınması və yadlar tərəfindən özününküləşdirilmədən qorunmasını təminində əlimizdən gələni etməyi ali borc bilməliyik.

**References**

1. H.Eliyev ve Medeni irs– Azerbaycan Dovlet Medeniyyət ve Turizm Nazirliyi. Baki. 2014
2. Qiyasi C. Nizami dovru memarliq abideleri. 1991
3. Mamedzade K.M., Sarkisov N.A. Arhitekturnye pamyatniki Gyandzhi. Baku. ELM. 1988
4. Usejnov M., Bretanickij L., Salamzade A. Istoriya arhitektury Azerbajdzhana. Moskva. 1963
5. Muharibe ve Tarixi medeniyyət abidelerimiz. Heydər Aliyev Fondu, 2006
6. Ə. Rahidə. Azərbaycan Memarlığı XV-XIX əsrin əvvəllərindı. 2013
7. https://icherisheher.gov.az/az/93-sirvansahlar-saray-kompleksi

*Məqaləyə istinad: Abdullayeva N.A. Heydər Əliyevin Azərbaycan memarlıq irsinin qorunmasında rolu. Elmi Əsərlər/Scientific works, AzMİU, s. 5-9, N2, 2023*
*For citation:Abdullayeva N.A. Hayder Aliyev's role in protecting Azerbaijan architectural heritage. Elmi Əsərlər/Scientific works, AzUAC. p.5-9, N2, 2023*